

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 28-29 (7077-7078) Cümə axşamı, 11 aprel 2013-cü il Qəzet ayda 4 dəfə çıxır Qiyməti 40 qəpik




## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Yan Kellini (ABŞ), Jak Foru (Fransa) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə əlaqədar məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

* * *

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının Sərhəd Xidmətinin baş direktoru Zumeyyim bin Cuveybir Əs-Səvvatın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında əməkdaşlıq və dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişaf etdiyi vurğulanmış, sərhəd xidmətləri arasında əməkdaşlığın yaxın gələcəkdə inkişaf etdirilməsinə və bu sahədə qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsi işinə böyük töhfə veriləcəyi bildirilmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kanada İcmalar Palatasının sədrinin müavini, Kanada-Azərbaycan dostluq qrupunun sədri Barri Devolinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Kanada arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, parlamentlərarası əməkdaşlıq və digər sahələrdə genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulanmış, münasibətlərin möhkəmləndirilməsində qarşılıqlı səfərlərin önəmi qeyd olunmuş, ikitərəfli əlaqələrin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

* * *

Dövlətimizin başçısı İlham Əliyev «The Business Year» jurnalının baş direktoru xanım Ayse Nazir Valentini, jurnalın baş redaktoru Ceyson Conu və buraxılışa məsul əməkdaşlarını qəbul etmişdir.

**M. RƏHİMOV.**

## «Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu haqqında Əsasnamə»nin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndini rəhbər tutaraq, informasiya texnologiyaları sahəsində istehsal yönümlü fəaliyyətin dəstəklənməsi, bu sahəyə yerli və xarici investisiyaların cəlb olunması üzrə işlərin təşkili məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur - Əlavə I).

2. "Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun vəsaitinin istifadəsi Qaydaları" təsdiq edilsin (əlavə olunur - Əlavə II).

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bir ay müddətində Fondun işçilərinin say tərkibini müəyyən etsin və Fondun maddi-texniki təminatı ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

3.2. üç ay müddətində Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılmasına dair təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.5. Bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Fondun fəaliyyətinin təşkili məqsədi ilə zəruri tədbirlər görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 2 aprel 2013-cü il.*

## «Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, qloballaşma şəraitində Azərbaycan dilinin imkanlarından dövrün tələblərinə uyğun istifadəni və ölkədə dilçiliyin inkişafını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramının həyata keçirilməsinə nəzarət və tədbirlərin icrası zamanı müvafiq təşkilatlarla işlərin əlaqələndirilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə həvalə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramının icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 9 aprel 2013-cü il.*